# QURBAN BAYRAMINIZ MÜBARƏK!

# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №10 (7481) | 2 avqust 2020-ci il | Bazar | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|




## Azərbaycanı zəfərlərə aparan lider

**14 iyul - Azərbaycan xalqının həyatında mühüm tarixi əhəmiyyət kəsb edən bir gündür. Düz 51 il bundan öncə-14 iyul 1969-cu ildə xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin plenumunda respublikamızın rəhbəri seçildi. Heydər Əliyev o dövrdə Azərbaycanda milli ruhun sıxışdırılmasına yol vermədi, onu yüksəltmək üçün mövcud imkanlardan maksimum dərəcədə istifadə etmişdi. Bu baxımdan Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi milli özünüdərkin, milli özünəqaydışın başlanğıcı kimi qəbul edilir. Məhz bu dövrdən başlayaraq Heydər Əliyevin idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti geniş vüsət aldı. Milli qürur hissinin və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyası həyata keçirilməyə başladı. Bununla yanaşı Heydər Əliyev respublikada xalq təsərrüfatını və mədəni quruculuğu inkişaf etdirmək, qanunçuluğu və əmək intizamını möhkəmləndirmək, kadrların məsuliyyətini artırmaq siyasətini uğurla həyata keçirirdi. Ölkənin ictimai və iqtisadi siferasında həyata keçirilən dərin islahatlar, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsi 1976-cı ildə Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilməsi ilə nəticələndi.**

Heydər Əliyevin rəhbəriyi dövründə Bakıda böyük abadlıq və quruculuq işləri aparılmış, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük rolu olan inzibati mərkəzlər, saray, institut, nəşriyyat, tədris korpusu, idman kompleksi, yaşayış binaları tikilib istifadəyə verilmişdir.

Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirən qayğısı sayəsində Bakı şəhərində xalqımızın görkəmli xadimlərinə əzəmətli heykəllər ucaldılmış, onların ev-muzeyləri yaradılmışdır. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, böyük klassiklərin ittifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq səviyyəsində ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri Heydər Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

1982-ci ilin noyabrında Sov.İKP MK Siyasi Büro üzvü seçilən, eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilən Heydər Əliyev SSRİ kimi nəhəng bir dövlətin ali rəhbərliyinə ucalmaqla dövlət idarəçiliyi istedadı və bacarığı nümayiş etdirmişdir. Lakin Heydər Əliyev 1987-ci ilin oktyabrında Sov.İKP MK Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qarbaçovun yeritdiyi səhv xəttə, onun antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifədən istefa vermişdir.

1991-93-cü illərdə respublikaya rəhbərlik edənlərin səriştəsizliyi nəticəsində Azərbaycanda təhlükəli vəziyyət yarananda Heydər Əliyev xalqımızın və o dövrki rəhbərliyin çağırışı ilə 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Həmin gün Azərbaycan xalqının tarixinə Qurtuluş günü kimi daxil oldu.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu Öndərin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, social-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq norma və prinsiplərə uğun olaraq müstəqil dövlət quruculuğu prosesi başladı.

1994-ci ilin mayında Ermənistan-Azərbaycan münaqişəsinin həllində ilkin mərhələ kimi cəbhə xəttində atəşkəs elan olundu. XX əsrin ən əhəmiyyətli hadisəsi 1994-ci ilin sentyabrında aparıcı xarici şirkətlərlə "Əsrin müqaviləsi" adlandırılan neft kontraktının imzalanması da məhz Heydər Əliyevin adıyla bağlıdır.

1995-ci ilin noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan ilk milli Konstitusiyamız hüquqi sahədə köklü islahatların aparılması ilə nəticələndi. Heydər Əliyevin uğurlu və məqsədyönlü xarici siyasətinin nəticəsində 2001-ci ildə Azərbycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi.

Heydər Əliyevin xalqımız qarşısında ən böyük xidmətlərindən biri siyasi kursunun dönməzliyini və varisliyini təmin etməsi, bu siyasi kursun ən layiqli davamçısı cənab İlham Əliyevi yetirməsidir. 2003-cü ildən Azərbaycan Prezidenti cənab İlham Əliyev bütün sahələrdə ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirir, ölkəmiz yeni-yeni nailiyyətlərə imza atır. Əldə olunan bütün uğurlarımız Heydər Əliyevin ideyalarının real bəhrəsidir.

## Şirvan şəhər İcra Hakimiyyətində növbəti video-müşavirə keçirilib

**Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun sədrliyi ilə keçirilən videomüşavirədə şəhər İcra Hakimiyyətinin məsul işçiləri, şəhər İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri, şəhərin səhiyyə müəssisələrinin, xidmət təşkilatlarının rəhbərləri iştirak edib.**



Video-müşavirədə giriş sözü ilə çıxış edən şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov 12 iyul 2020-ci il tarixdə günorta saatlarında Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozaraq artilleriya qurğularından istifadə etməklə Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tovuz rayonu istiqamətində silahlı qüvvələrimizin mövqelərini atəşə tutduğunu, ordumuzun əks həmlələri nəticəsində Ermənistan silahlı qüvvələrinin hücum cəhdlərinin qarşısının



alındığını bildirdi. Hazırda Azərbaycan silahlı qüvvələrinin operativ vəziyyətə nəzarət etdiyini qeyd etdi. Təxribat nəticəsində Azərbaycanın 4 nəfər hərbi qulluqçusunun şəhid olduğunu, 4 nəfərin yaralandığını bildirdi. Şəhidlərimizə Allahdan rəhmət, yaralı hərbiçilərimizə isə şəfa dilədi. Yaranmış vəziyyətlə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Təhlükəsizlik Şurasının növbədənkənar iclasını keçirdiyini, iclasda erməni təcavüzü ilə bağlı ətraflı məlumat verdiyini, həlak olan hərbiçilərimizin qisasının alındığını, ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyinə inamını ifadə etdiyini bildirdi.

Sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə koronavirus (COVID-19) pandemiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması və xalqımızın yolxucu infeksiyadan az zərərlə çıxması istiqamətində zəruri qabaqlayıcı tədbirlərin görüldüyünü, profilaktik və təxirəsalınmaz tədbirlərin yerlərdə də davam etdirildiyini bildirdi. İlqar Abbasov xüsusi karantin rejimi müddətində şəhər İcra Hakimiyyəti başçısı yanında yaradılmış Operativ Qərərgahın təsdiq edilmiş tədbirlər planına uyğun olaraq təxirəsalınmaz işlərin həyata keçirildiyini, yoluxma riskinin azaldılması istiqamətində zəruri tədbirlərin davam etdirildiyini qeyd edib. Xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsi məqsədi ilə Şəhər İcra Hakimiyyəti yanında fəaliyyət göstərən Operativ Qərargah üzvləri və 35 mobil qrup tərəfindən ticarət, iştimai-iaşə və xidmət obyektlətində reydlərin keçirildiyini yerlərdə izahetmə-xəbərdarlıq işlərinin davam etdirildiyini, əhalinin sıx olduğu məkanlarda, eləcə də ictimai nəqliyyatda qoruyucu maskalardan istifadənin zəruriliyi və sosial məsafənin gözlənilməsi ilə bağlı maarifləndirici söhbətlərin aparıldığını, Nazirlər Kabineti yanında Operativ Qərərgahın tövsiyə və tapşırıqların yerinə yetirildiyini bildirdi. Şəhər İcra Hakimiyyəti yanında yaradılmış Operativ Qərərgahın ticarət, ictimai iaşə və xidmət obyektlərinə keçirdiyi reydlər zamanı xüsusi karantin rejiminin qaydalarına əməl etməyən 5 ictimai-iaşə obyektinin fəaliyyəti dayandırılmış, 78 nəfər vətəndaş karantin qaydalarını pozduğuna görə 100 manat, 1 nəfər vətəndaş 200 manat, 2 ticarət obyekti isə sanitar-epidemioloji qaydalara əməl etmədiklərinə görə Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən hər biri 1500 manat məbləğində cərimə edilmişdir.

Video-müşavirədə infeksiyanın yayılmasının qarşısının alınması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən görülən işlər barədə ətrafli məlumatlar verildi. Həyata keçiriləcək profilaktik tədbirlərə bağlı təkliflər irəli sürüldü. Müxtəlif bank filiallarında və ödəmə terminallarında, ictimai nəqliyyatda dezinfeksiya işlərinin aparılması, sosial məsafənin gözlənilməsi, maskadan istifadəyə ciddi nəzarətin davam etdirilməsi tövsiyə olundu.

Sonra Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İLqar Abbasov həlli vacib olan sosial və kommunal məsələlərlə bağlı aidiyyəti xidmət təşkilatlarının rəhbərlərinə, məsul əməkdaşlarına müvafiq tapşırıq və tövsiyələrini verdi.

# Şirvan şəhərində 68 şəhid ailəsi və müharibə əlilinə mənzil verildi



**Koronavirus infeksiyasının yayılmasının və törədə biləcəyi fəsadların qarşısının alınması məqsədi ilə həyata keçirilən karantin rejiminə baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sosial layihələr uğurla davam etdirilir. Ölkə rəhbərliyinin çağırışına uyğun olaraq, pandemiya dövründə dövlətlə yanaşı, özəl sektorun da sosial məsuliyyət təşəbbüsləri ilə çıxış etməsi ölkəmizin dayanıqlı inkişafının və cəmiyyətimizin rifahının qorunması üçün vacibdir. Bunun növbəti nümunəsi kimi, "Kapital Bank" tərəfindən sosial məsuliyyət çərçivəsində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün Şirvan şəhərində 68 mənzilli yaşayış binası inşa olunub və həmin vətəndaşlara təqdim edilib.**

Müasir tələblərə uyğun yaşayış şəraitinin yaradıldığı binadakı mənzillərdən 16-sı birotaqlı, 44-ü ikiotaqlı, qalanları üçotaqlıdır.

Mənzillərin təqdim olunması ilə bağlı tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin müavini Hidayət Abdullayev, Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, "Kapital Bank"ın rəsmisi Tural Ayvazlı iştirak ediblər.

Hidayət Abdullayev çıxışında Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ildə də ölkəmizdə heç bir sosial proqramın təxirə salınmadığını, əksinə, bu proqramların uğurla davam etdirilərək, daha da genişləndirildiyini vurğulayıb.

Nazir müavini bildirib ki, dövlət başçısının çağırışına uyğun olaraq bu gün ölkəmizdə özəl sektorun sosial məsuliyyət, həmrəylik prinsipinə əsaslanan fəaliyyəti getdikcə genişlənir. Məcburi köçkünlər üçün "Qobu-1", "Qobu-2" və "Qobu-3" yaşayış komplekslərinin özəl sektorun hesabına salınması da bunun bariz nümunəsidir. "Kapital Bank" tərəfindən korporativ sosial məsuliyyət çərçivəsində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün 4 mərtəbəli, 3 bloklu yaşayış binasının inşa edilməsi özəl sektorun sosial layihələrə



fəal şəkildə qoşulmasının, həmçinin şəhid ailələrinin, müharibə əlillərinin rifahı üçün dövlətin apardığı ardıcıl işlərə yaxından dəstək verdiyinin növbəti uğurlu göstəricisidir.

Nazir müavini bütün sosial proqramlar kimi, şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzillə təminat proqramının da geniş miqyas aldığını deyib. Nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 2018-ci ildə 626 ədəd, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən 2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Hazırda təqdim edilən mənzillər də daxil olmaqla, bu il artıq 370-ədək mənzilin, ümumilikdə ötən dövrdə şəhid ailələrinə və müharibə əlillərinə 7970 mənzil və fərdi ev verilib.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək bildirib ki, şəhid ailələrinin, müharibə əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi, diqqət və qayğı ilə əhatə olunması ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11.000(on bir min) manat məbləğində birdəfəlik maddi yardımın verilməsi, vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, həmçinin bu insanların mənzil və avtomobillərlə təmin olunması dövlət tərəfindən bu kateqoriyadan olan ailələrə son illər ərzində göstərilən diqqət və qayğının əyani nümunəsidir.

İlqar Abbasov qeyd edib ki, şəhid ailələri, Qarabağ əlilləri və veteranları şəhər İcra Hakimiyyəti tərəfindən daim diqqətdə saxlanılır, onların problemlərinin vaxtında həll olunmasına, bayramlarda və əlamətdar günlərdə xüsusi qayğı göstərilməsinə önəm verilir.

"Kapital Bank"ın rəsmisi Tural Ayvazlı dövlət başçısının çağırışına uyğun olaraq, "Kapital Bank"ın da sosial layihələrdə fəal iştirak etdiyini vurğulayıb. Bildirib ki, "Kapital Bank" korporativ sosial məsuliyyət strategiyasına uyğun olaraq, işsiz və əlilliyi olan şəxslər, məcburi köçkün və aztəminatlı ailələr üçün müxtəlif tədbirlər həyata keçirir.

Bu dəfəki sosial aksiya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirildi və bununla da "Kapital Bank" şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində apardığı ardıcıl işlərə öz töhfəsini verdi. Mənzillə təmin olunan şəhid ailələri və Qarabağ müharibəsi əlilləri onların rifahı üçün aparılan mühüm işlərə, həmçinin mənzillə təmin olunduqlarına görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

## ŞƏHİDLƏRİMİZ

# SONACAN DÖYÜŞMƏK İSTƏYİRDİ

**Hümbətov İlham Səfər oğlu 1965-ci ilin 26 aprel tarixində Şirvan şəhərində anadan olmuşdur. İyirmi yeddi illik həyatını Şirvan şəhərində yaşamışdır. Orta təhsilini Şirvan şəhər 16№-li məktəbdə başa vurduqdan sonra Şirvan şəhərində sürücülük peşəsinə yiyələnmişdir.**



1982-ci ildən tankçı kimi Ukraynanın Lvov vilayətində hərbi xidmət keçmişdir. 1988-1990-cı illərdə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən bədnam qonşularımız ermənilərə qarşı vuruşan könüllü dəstəsinə qoşulur. O üzərinə düşən hər bir tapşırığı layiqincə yerinə yetirirdi. 1992-ci ilin 3 mart tarixində şəhid olmuşdur.

Şəhidin ailə üzvləri ilə görüşərkən öyrəndim ki, anası Tamara Hümbətova, atası Səfər Hümbətov bir neçə il öncəsi dünyalarını dəyişmişlər. Bu səbəbdən şəhidin qardaşı İsgəndər Hümbətov və şəhidin oğlu Mehman Hümbətovla həmsöhbət olduq. Şəhidlik zirvəsinə ucalmış qardaşı haqqında danışan İsgəndər ailədə dörd qardaş olduqlarını dedi. İlhamın daha çox qayğıkeş, səmimi, mehriban, dost-tanış sevən olduğunu, eyni zamanda yorulmaz, qorxmaz, qətiyyətli, hər işi sonunacan yerinə yetirməyə israrlı gənc olduğunu söylədi.

Qardaşım 1990-cı ildə döyüşə yollandı. Bu yolda çox qərarlı idi. Hər dəfə onunla əlaqə yaradanda «Bu cənnət məkanı Qarabağı ermənilərə vermək olmaz» deyirdi. Sonacan döyüşəcəyini bildirirdi. Amma qəfil düşmən gülləsi arzularını yarımçıq qoydu. 1992-ci ilin 3 martında sinəsindən aldığı snayper gülləsi ilə şəhid oldu. O çox vətənpərvər idi. Hər işə sevgiylə yanaşırdı. Ailə həyatını da öz istəyi ilə qurmuşdu. Şəhid olarkən iki azyaşlı oğul övladı var idi.

Hazırda 31 yaşı olan şəhidin böyük oğlu Mehmandan atası haqqında soruşanda dedi ki, atam şəhidlik zirvəsinə yüksələndə kiçik olmuşam. Babam, nənəm, anam, əmilərimdən onun haqqındaa eşitmişəm. Atamın getdiyi yol mənim də yolumdur. Bu şərəfli ömür yolu ilə fəxr edirəm. Mehman bir azərbaycanlı kimi Ali Baş Komandanın əmrini hər an yerinə yetirməyə hazır olduğunu qətiyyətlə söylədi. Əldə silah torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qalxmağa hazıram.

Mehman Şirvan şəhərində şəhid ailələrinə olan diqqət və qayğıdan söz açıb dedi ki, ailəmiz iki otaqlı mənzillə təmin olunmuşdur. Buna görə də dövlətimizə və Şirvan şəhər İcra Hakimiyyətinə öz təşəkkürünü bildirdi.

Onu da əlavə edib dedi ki,Şirvan gəncləri də işğal olunmuş torpaqlarımızın erməni quldurlarından azad olması yolunda döyüşə hazırdırlar.



*Şəkildə: İlham atası Səfər kişi ilə. 1980-ci illərin sonları*

Cənab Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qeyd etdiyi kimi, «Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir. Şuşa, Xankəndi, işğal edilmiş digər torpaqlarımız azad ediləcək. Azərbaycanın dövlət bayrağı həmin ərazilərdə dalğalanacaq. O gün uzaqda deyil.»



**Zöhrə QARAYEVA**

# Onlar daim dövlət başçısının diqqət mərkəzindədirlər



**Bu bir həqiqətdir ki, hər bir dövlətin əsas məqsədlərindən biri əhalinin sosial müdafiəsini təşkil etmək və sosial rifah halını yaxşılaşdırmaqdır. Bu gün real faktdır ki, Azərbaycan dövləti öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.**

Dövlət başçımız İlham Əliyev cənablarının 17 il prezidentlik fəaliyyəti dövründə xalqımız bunun şahididir. Xüsusi ilə də, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, onların ailə üzvləri daim dövlətin və dövlət başçısının diqqət və qayğısı altındadır. Bu kateqoriyaya aid olan insanlar mənzil və avtomobillər, güzəşt və müxtəlif kompensasiyalarla təmin edilirlər.

İyulun 21-də şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində dövlət başçımız bildirib ki, bu, dövlətin sizə diqqətinin növbəti təzahürüdür. Dövlət başçımız onu da qeyd edib ki, şəhid ailələrinin, müharibə əlillərinin problemləri daim diqqət mərkəzindədir və son illər ərzində bu istiqamətdə çox böyük işlər görülüb.

Ölkəmizdə şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı sahəsində rekord göstəricilərə nail olunması hədəflənib və dövlət başçısı bu proqramın tezliklə başa çatdırılmasına nail olunacağını bəyan edib.

Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi dövlət başçısının sosial siyasətinin əsas istiqamətlərindən biridir. Ötən il reallaşdırılan sosial paketlər çərçivəsində bu kateqoriyadan olan vətəndaşlar üçün sosial ödənişlərin də ciddi şəkildə artırılması təmin edilib. 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinin birdəfəlik ödəmə(11 min manat) ilə təminatı proqramı da 100 faizə yaxın icra olunub. Eyni zamanda şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı da ildən-ilə gücləndirilir. 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla-626 ədəd, 2019-cu ildə isə bundan 50 faiz çox olmaqla-934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən, 2020-ci ildə bu sahədə rekord göstərici kimi, azı 1500 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi nəzərdə tutulub. Hansı ki, onlardan artıq 430-u təqdim edilib. Son illərdə 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib, eyni zamanda 7 minə yaxın avtomobil təqdim edilib. Pandemiya dövründə dünyada iqtisadi böhran davam edir, dünyanın 150 ölkəsi kredit üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Neftin qiymətinin bir neçə dəfə düşməsinə baxmayaraq heç bir sosial layihə ixtisar edilməyib. Bu da dövlətimizin və dövlət başçısı cənab İlham Əliyevin Azərbaycan xalqına göstərdiyi diqqətin və qayğının təzahürüdür.

***Əfqan Həsənov,***
**Şirvan Gənclər Evinin direktoru**

# Şirvanda dezinfeksiya işləri gücləndirilir



**Ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq Şirvan şəhər ərazisində koronavirus əleyhinə profilaktik tədbirlər davam etdirilir.**

Koronavirus infeksiyasının Şirvanda yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədi ilə şəhər İcra Hakimiyyəti tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilir. Şəhərdə geniş miqyaslı dezinfeksiya işləri həyata keçirilir. Xüsusi texnikalardan istifadə edilərək su şırnaqları ilə küçə və məhəlləndaxili yollar yuyulur. Şirvan şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin, Şirvan Bələdiyyəsinin xüsusi həzırlıqlı sanitar işçiləri tərəfindən şəhər ərazisində, parklarda, uşaq əyləncə və idman meydançalarında, söhbətxanalarda, veteranlar guşəsində, ictimai binaların həyətlərində, giriş bloklarında, zirzəmilərdə, lift kabinələrində, məişət tullantı konteynerləri meydançalarında, sərnişindaşıma xidməti ilə məşğul olan avtobuslarda, dayanacaqlarda, tibbi-profilaktik və dezinfeksiya işləri mütəmadi xarakter daşıyır və sanitargigiyenik vəziyyət nəzarətdə saxlanılır. Şirvan şəhər İcra Hakimiyyəti virusun geniş yayılma tendensiyasının qarşısının alınması məqsədilə vətəndaşlara diqqətli olmağı, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməyi, əhalinin sağlamlığının etibarlı qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarları və müəyyənləşdirdiyi qaydaları tam yerinə yetirməyi, yoluxma riskini azaltmaq üçün şəxsi gigiyena qaydalarına əməl etməyi, özünütəcrid tədbirlərinə uyğun davranmağı, mümkün qədər evdə qalmağı, evdən çıxarkən sosial məsafəni gözləmələrini, maska, əlcək, spirt və digər qoruyucu vasitələrdən istifadə etmələrini tövsiyə edir.

Professor Nazim Kazımov - 70

# XOŞBƏXT İNSAN

**Allah-taala Nazim Kazımovdan heç nəyi əsirgəməyib: boy-buxun onda, gözəl qamət və sima, gülərüz, xeyirxahlıq, yaxşılıq göstərməyə hazır olmaq istəyi, ağıl-dərrakə, savad, geniş dünyagörüş, təşkilatçılıq və idarəetmə qabiliyyəti, ailə xoşbəxtliyi, harada işləməsindən asılı olmayaraq, özünü sevdirmək və kollektivin sevgisini qazanmaq bacarığı onda! Məgər bunlar azdır?!**



Nazim Kazım oğlu Kazımov öz ixtisasını, sənətini çox gözəl bilir. Yaxşı ədəbiyyatçı və musiqiçidir. İncəsənətin ən önəmli sahələrində ali təhsil alıb, özünü təsdiq edib.

Nazim Kazımov 1950-ci il aprelin 4-də Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya gəlib. Atası Kazım kişi nəinki Naxçıvan, habelə respublikamızda özünəməxsus çəkisi, sanbalı, xətir-hörməti və şöhrəti olan şəxs idi. Uzun illər partiya və dövlət orqanlarında işləmişdi. Övladlarının yüksək səviyyədə təhsil almalarını, həyatda fəal mövqe tutmalarını, yaxşı vətəndaş və insan olmalarını istəyirdi və buna nail olmuşdu. Belə bir ailədə böyüməsi Nazimin dünyagörüşünün formalaşmasına, onun həyatda öz yolunu müəyyənləşdirməsinə kömək etmişdi.

Nazim Naxçıvanda doğulsa da, onun əmək fəaliyyəti Əli Bayramlı (hazırda Şirvan) və Bakı şəhərləri ilə bağlıdır. O, ilk əmək fəaliyyətinə Əli Bayramlı şəhərində başlamış, 16 il burada yaşamış və işləmişdi. Nazim müəllim şəhərdəki Musiqi məktəbində əvvəllər tar müəllimi, sonradan həmin məktəbin direktoru vəzifələrində çalışmışdı. Mən Nazimlə burada - bu sənaye şəhərində tanış olmuşam. O, bu şəhərdə şana-şöhrətə çatmış, səriştə, təcrübə, dərin hörmət və məhəbbət qazanmışdır. Əlibayramlılar o zamanlar da, indinin özündə də bu gözəl insanı sevir və öz yerliləri hesab edirlər.

Nazim Kazımov ötən əsrin 80-ci illərindən Bakıda çalışır, Əlibayramlıların ona sevgisi bu günün özündə də tükənməyib. Nazim özü də bu şəhərə bağlıdır və bu şəhərdə yaşayanların xeyrindən, şərindən qalmır. Bir ayağı Şirvan şəhərindədir. Şəhərin Musiqi məktəbi məhz Nazim müəllimin direktor işlədiyi illərdə sayılıb-seçilib, dilə gətirilib. O, bu şəhər üçün onlarla musiqiçi kadrları yetişdirib.

Nazim Kazımov harada işləyibsə, yaxşı işinə görə fərqlənib, rəğbətləndirilib. Naxçıvan şəhər Musiqi məktəbini bitirəndən sonra Asəf Zeynallı adına Musiqi Texnikumunun xalq çalğı alətləri şöbəsinə qəbul olunub. Burada oxuya-oxuya 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin qiyabi şöbəsinə daxil olub. Asəf Zeynallı adına Musiqi Texnikumunu bitirib, tar müəllimi kimi Əli Bayramlı şəhər Musiqi məktəbinə təyinat alıb. 1973-cü ildə eyni zamanda Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məzunu olub. Elə həmin il sənədlərini Azərbaycan Dövlət Konservatoriyasına verib, bu ali təhsil müəssisəsinin tələbəsi olub, Səid Rüstəmov və Süleyman Ələsgərov kimi böyük sənətkarların siniflərində oxuyub.

Nazim Kazım oğlu Kazımov elmi yaradıcılıqla da ciddi məşğul olur. O, mənim uzun müddət çalışdığım Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (hazırda Təhsil İnstitutu) dissertantı kimi elmi araşdırmalara qoşulub. Professor Vidadi Xəlilovun elmi rəhbərliyi ilə "Ümumtəhsil məktəblərində şagirdlərin musiqi qabiliyyətlərinin inkişafında muğam nümunələrindən istifadə üzrə işin sistemi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, pedaqoji elmlər namizədi alimlik dərəcəsi alıb. 1981-ci ildən vaxtilə ali təhsil aldığı Azərbaycan Dövlət Konservatoriyasında çalışmağa başlayıb, 1992-ci ildən respublika Təhsil Nazirliyində işə başlayıb və xeyli müddət burada məsul vəzifədə çalışıb.

Nazim Kazımov hazırda bir əsrdən artıq bir müddətdə Azərbaycan Respublikası üçün musiqi kadrları hazırlayan, adlı-sanlı musiqiçilərin çalışdıqları, bir zamanlar hətta Üzeyir Hacıbəylinin direktoru olduğu musiqi təhsili müəssisəsinə rəhbərlik edir. Bu, böyük xoşbəxtlikdir! Bir zamanlar tələbə kimi qədəm basdığın məktəbə müəyyən vaxtdan sonra özün rəhbərlik edirsən!

Nazim müəllim professor elmi adına layiq görülüb, əməkdar incəsənət xadimidir. O, kollecə rəhbərlik etməklə yanaşı eyni zamanda Bakı Musiqi Akademiyasının professorudur.

Nazim Kazımov öz işini dərs demək, Musiqi kollecinə rəhbərlik etməklə məhdudlaşdırmır, fəal ictimai iş aparır, tələbələrin dərd-sərləri ilə maraqlanır, əlindən gələn köməyi onlardan əsirgəmir. Bundan başqa, dərsliklər, dərs vəsaitləri və digər səpgili əsərlər üzərində işləyir və onların nəşrinə nail olur. Son illərdə onun "Tar, kamança, kanon" (pedaqoji təcrübə proqramı), "Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri", "Tar ilə fortepiano üçün pyeslər məcmuəsi", "Səid Rüstəmov", "Asəf Zeynallı", "Musiqi Kolleci - 110", "Ümumtəhsil məktəblərinin VII sinifləri üçün «Musiqi» dərsliyi və s. bu kimi kitabları işıq üzü görmüşdür.

Ürəyi, qəlbi təmiz, əməli düz insanlar həmişə zirvələrə ucalır, daim uğurlar qazanır, xoşbəxtlik tapır, hamının istəklisi olur. Nazim Kazımov kimi!

Əziz dost! Bu günlər eşitdim ki, 70 yaşına çatmısan! Yaşlar içərisində 70-in özünəməxsus gözəllikləri var. Belə gözəl yaşda olduğun üçün səni təbrik edir, uzun ömür, cansağlığı arzulayıram! Hünər göstər və daha 70 il yaşa! Sən buna layiqsən!

**Akif Abbasov,**
**Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü**

**Redaksiyadan:** hörmətli professor Nazim Kazımov uzun illər Şirvan şəhərində (keçmiş Əli Bayramlı şəhər) yaşayıb, çalışıb, istiqanlılığı, yüksək ziyalılığı, səmimiyyəti ona və şəhərdə dərin hörmət qazandırıb. Şirvan şəhər Musiqi məktəbində müəllim və uzun illər direktor işləyib. Kollektivdə, ümumilikdə şəhərdə dərin hörmət, nüfuz qazanmış Nazim müəllim tez-tez yarızarafat və yarıciddi deyir ki, mən əlibayramlılıyam. Axı ailə xoşbəxtliyimi bu şəhərdə tapmışam.

Bəli, N.Kazımovu bu şəhərdə çoxu özünə doğma və əziz hesab edib. Nazim müəllim bu hörməti zəhməti, əməyi, ən əsası səmimiyyəti hesabına qazanıb.

Şirvan şəhərində Musiqi məktəbindəki onlarla yetirməsi əziz müəllimi Nazim Kazımovun şərəfli, zəhmət ətirli əmək yolunu uğurla davam etdirir.

70 yaşın mübarək, hörmətli professor-qardaşımız Nazim müəllim!

100 yaşa!

# YALNIZ QƏLƏBƏ HAQQINDA DÜŞÜNÜRÜK

**Müharibənin nə olduğunu yaxşı bilirəm. 1993-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmişəm. Ağdam, Tərtər, Goranboy ərazilərində mənfur qonşularımız-erməni işğalçıları ilə ölüm-dirim döyüşlərində əsgərlərimizlə onlara, necə deyərlər, yaxşı dərs vermişik.**



Milli orduda xidmət etdiyim günlərdə, bu gün də söhbət etdiyim gənclərimizlə bir məsələ gün kimi mənə aydın olmuşdur. Biz-Azərbaycan ordusunun hərbi qulluqçuları, müharibə veteranları, hər bir qeyrətli vətəndaşımız Vətənimizə, dövlətimizə, xalqımıza, Silahlı Qüvvələrimizin Ali Baş Komandanına güvənmişik. Yaxşı dərk edirik ki, ən böyük borcumuz Vətənimiz Azərbaycanadır.

Onu da yaxşı bilirik ki, bizim işimiz haqq işidir. Ocağımızın başında yer verdiyimiz nankor qonşularımız-ermənilər haqsız yerə bizdən torpaq iddiası edirlər. Hiyləgər düşmən havadarlarına arxalanaraq 20 faiz torpağımızı işğal edib. 1 milyon nəfərdən çox qaçqın-köçkünümüz var. Onlara dövlətimiz tərəfindən lazımınca kömək göstərilir. Amma onların da qəti fikirləri budur: doğma də-də-baba yurdlarına qayıtsınlar.Buna tam əmindirlər ki, gec-tez doğma yurd-yuvalarına dönəcəklər. Ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu istiqamətdə ardıcıl, məqsədyönlü tədbirlər görürlər. Azğın düşmən isə hər vasitə ilə sülh danışıqlarından yayınır, hətta təxribatlar törətməkdən də çəkinmirlər. Bu günlərdə, yəni iyulun 12-də ermənilər daha bir məkrli addım atdılar. Onlar Tovuz rayonu ərazisində iriçaplı pulemyotlardan, artilleriya qurğularından istifadə etməklə sərhədimizi pozmağa cəhd göstərdilər. Aprel döyüşlərində (2016-cı il) olduğu kimi, Tovuz döyüşlərində də ordumuz, necə deyərlər, düşmənə yerini göstərdi, ona çox böyük sarsıdıcı zərbələr vurdu. Cavab atəşi ilə düşmən geri oturduldu.

Bir daha aydın oldu ki, Azərbaycan güclü dövlətdir. Ordusu da güclüdür. Müasir döyüş texnikası ilə təmin olunmuşdur. Azərbaycan Respublikasının Prezideneti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz son illər daha da güclənmişdir.

Müharibə itkisiz olmur. Qarabağ uğrunda mübarizə başlanandan biz minlərlə şəhid vermişik.

Tovuz döyüşlərində də torpaq uğrunda, Vətən uğrunda şirin canlarından keçən şəhidlərimiz oldu. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik.

Belə bir deyim var: «Düşmən təslim olmayanda onu məhv edərlər» Bu həqiqətən də belədir. Əgər düşmən sülh danışıqlarından nəticə çıxarmazsa ermənilər tərəfindən işğal olunmuş hələ də dədə-baba torpaqlarımızı silah gücünə alacağıq.

Tovuz sərhədində baş verən məlum hadisələrdən sonra xalqımızın mütəşəkkilliyinin bir daha şahidi olduq. Respublikamızda, hətta onun hüdüdlarından kənarlarda keçirilən aksiyalarda Azərbaycanın haqq işi müdafiə olunur, azğın ermənilərin işğalçılıq siyasəti pislənir. Hər yerdə ordumuza dəstək aksiyası keçirilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına səs verən minlərlə vətəndaş Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə elektron qaydada həmçinin qurumun qeydiyyatda olduqları yerli idarə, şöbə və bölmələrinə gələrək orduda xidmət haqqında arzularını ifadə edib və müvafiq formada qeydiyyata alınıblar.

Biz, azğın düşmənlə ön cəbhədə ölüm-dirim döyüşlərində iştirak etmiş Qarabağ müharibəsi veteranları da azğın düşməni məhv etməyə, lazım gələrsə Azərbaycan torpağının müdafiəsi uğrunda vuruşmağa, canımızdan keçməyə hazırıq.

Ordumuza dəstək aksiyaları əsgərlərimizin qələbə ruhunu daha da yüksəldir. Ordu ilə xalqın birliyini nümayiş etdirir. Bir sözlə, xalqımız ordusuna inanır, ordu da xalqa güvənir. Belə bir ordunun qələbə zəfərinə tam inanırıq.

**Pənah XANKİŞİYEV,**
**Şirvan şəhər Qarabağ müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri İctimai Birliyinin sədri**

# Qurban bayramı - İslam aləmində ən müqəddəs bayramlardan biridir

**Qurban bayramı bütün müsəlman aləmində hər il hicri təqvimi ilə zilhiccə ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Mərasimlərdə qoyun, qoç, inək, dana və ya dəvə kəsilir. Qurbanın bir hissəsindən din xadimlərinə pay göndərilir, bir hissəsi isə kasıblara paylanır. Hamıya bərabər pay verilir, qurban kəsən özü də bərabər pay götürə bilər. Ənənəyə görə dilənçi və kasıblar bayram günü ac qalmasınlar deyə bu gün mərasimlərə dəvət olunurlar.**




Qurban bayramı ən qədim bayramlardandır. Dini qurban kəsmə mərasimi İslamdan da əvvəl mövcud olub, lakin o vaxtlar günahdan təmizlənmək, qəzəblənmiş Allahın könlünü almaq və s. nəzərdə tutulurdu.

Hicrinin (Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçməsinin) ikinci ilindən sonra dini qurban kəsmənin İslam aləmində başqa məqsədləri və səbəbləri yarandı. Belə ki, dini qurban kəsmə islam aləmində böyük ruh yüksəkliyi, dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərə yiyələndi.

Dini qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr edir. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır idi, İsmayıl özü də qurban olmağa razılaşır. Bu haqda Quranda yazılmışdır.

Allaha qəlbən yaxın və sadiq olduğunu sübut etmək istəyən İbrahim Peyğəmbər oğlu İsmayılı qurban kəsməyə hazır idi. Lakin uca Allah bunu öz elçisinə rəva bilmədi və qurbanlıq üçün ona bir qoç göndərdi. Buna görə də Qurbanlıq bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər.

Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisə onu göstərir ki, insanlar Allahı sonsuz imanla sevməli və öz sevgilərində bu cür səmimi olmalıdırlar. Çətin anlarda Allahı da yada salıb, yaxşı zamanlarda Onu unutmaq möminə yaraşan hərəkət deyil!

Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslamda insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur.

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi Qanununa əsasən Qurban bayramı Azərbaycanda da dövlət səviyyəsində bayram edilir.

Şəhərimizdə də bu il iyulun 31, avqustun 1-2-ə təsadüf edən Qurban bayramı yüksək səviyyədə qeyd olundu.

Bayramınız mübarək!

ŞİRVAN MƏTBUATI - 90

# QƏZETLƏRMİZİN REDAKTORLARI

## 2. Əkbər İsayev



**Arxiv sənədləri və «Pambıq zərbəçisi» qəzetinin respublika Milli kitabxanasında saxlanılan topluları Əkbər İsayevin 1935-1939-cu illərdə bu redaksiyaya rəhbərlik etdiyini göstərir. Keçmiş Əli Bayramlı rayonunun (indiki Şirvan şəhəri) Poladtoğay kəndindən olan Əkbər müəllim dövrünün ziyalılarından sayılıb. 1999-2000-ci illərdə bu kənddə olarkən hörmətli ziyalımızın oğlu Səfayət, həmin kənd məktəbinin dərs hissə müdiri Əzizağa Gözəlov və müəllim Əlvan Hüseynovla görüşdük. Oğlu atası haqqında əzizlərindən eşitdiklərini söylədi. Axı Əkbər müəllim Böyük Vətən müharibəsinə yollananda onun 5 yaşı olub.**

Kəndin hörmətli müəllimləri Ə.Gözəlov, Ə.Hüseynov Əkbər İsayev haqqında xoş xatirələr, sözlər söylədilər. Dedilər ki, rayon fəalı, redaktor Əkbər müəllim tez-tez kəndləri gəzirdi. Poladtoğayda çox olub. Savadlı ziyalı gözəl natiq idi. Bacarıqlı redaktor redaksiya ilə tez-tez əlaqə saxlamağı, xüsusilə çatışmazlıqlardan, əhalini daha çox narahat edən məsələlərdən yazmağı xahiş edirdi. Doğrudan da qəzetə yazılan yazı tezliklə dərc olunurdu. Tənqidi məqalələr isə rayon partiya komitəsində ciddi müzakirə edilirdi. Nöqsanlara yol verənlər cəzalandırılırdı. Kəndimizdə yarıtmaz ticarətdən, pambığın becərilməsində, yığılmasında nöqsanlara yol verənlər barədə ciddi ölçü götürülürdü. Bir sözlə, «Pambıq zərbəçisi» oxucuların sevimlisi idi. Bu şəraiti isə qəzetin redaktoru, həmkəndlimz Əkbər İsayev yaratmışdı.

Onu da qeyd edək ki, Əkbər İsayev işgüzar, tələbkar kadr olub. 1941-ci ildə fərdi keyfiyyətləri nəzərə alınaraq onu Zəngilan rayonuna məsul partiya işinə göndərdilər. Böyük Vətən müharibəsi başlayan kimi könüllü olaraq cəbhəyə yollanır. 1943-cü ildə döyüşlərin birində ağır yaralanır. Sağaldıqdan sonra ona qısamüddətli məzuniyyət verilir. Söyləyirlər ki, evinə getməzdən əvvəl rayon mərkəzində yerləşən redaksiyaya baş çəkir. Kollektivlə görüşür. Cəbhə gündəliyindən bir neçə məqaləni redaksiyaya təqim etdikdən sonra Poladtoğaya gedir.

Elə həmin ildə də döyüşçü dostlarının sıralarına yollanır.

1945-ci il 9 May Qələbə Gününü görmək ona qismət olmur. Nəcib insan, cəfakeş redaktor, ziyalı Əkbər İsayev alman faşistləri ilə döyüşlərin birində qəhrəmancasına həlak olur.

**F.RƏHİMOV**

2020-ci il gəldiyi andan çətinlikləri ilə bütün dünyada insanlara böyük problemlər yaratdı. Demək olar ki, hər sahədə çətinliklər özünü göstərdi. Təbii ki, COVİD-19 virusu təhsildə də böyük problemlərə və çətinliklərə yol açdı. Xüsusən də ali məktəblərə hazırlaşan gənclərimiz üçün imtahan stresi, bir yandan da xəstəliyin yaratmış olduğu vəziyyətdə ali məktəbə hazırlaşmağın çətinliyi. Həqiqətən də bu ilki məzunlarımız çox əziyyət çəkdilər. Amma bütün bu çətinliklərə, problemlərə baxmayaraq istedadlı, savadlı gənclərimiz hər şeyin öhdəsindən gəlməyi bacarır. Belə gənclərimizdən də biri İsmayılzadə Türkan İlham qızıdır.

# Fəxr ediləcək qızımız



2003-cü ilin aprelin 4-də Şirvan şəhərində dünyaya gələn Türkan 21-N tam orta məktəbi bu il bitirib. Təhsil aldığı illərdə yaxşı oxuyub ela qiymətlər alan Türkan IX sinfi qırmızı şəhadətnamə ilə bitirib.

Qızımızın hədəfləri də böyükdür. Həkim, özü də beyin cərrahı olmaq istəyən Türkan həm də fənn olimpiadalarına da qatılıb. Əvvəllər də bir neçə dəfə yarışmaya qatılsa da 3-cü mərhələyə çata bilmədiyini söyləyən Türkan bu il daha çox səylə çalışaraq biologiya fənni üzrə Respublika olimpiadasında 3-cü yer layiq görülərək bürünc medala sahib olub.

Həkim olmaq istəyən Türkan sınaq imtahanlarında da yüksək nəticələr göstərərək ailəsini sevindirir. Müəllimləri və ailəsi qəbul imtahanlarında ondan ən yüksək 700 balı toplamağı gözləyirlər. Onu da qeyd edim ki, Türkan qızların hər sahədə öndə olmasını istəyir. Ən çətin işlərdə də qızların oğlanlardan heç də geri qalmayacaqlarını, hətta daha böyük uğurlara imza ata biləcəklərini söyləyir. Öz uğurları ilə də fəxr edir. Bütün qızların hər zaman ön sıralarda olmasını, uğur qazanmalarını istəyir.

Uğurun sirrini isə vaxtı düzgün bölməkdə görür. Daha çox dərslərinə vaxt ayıran gənc həm də əlavə gündəlik işlərlə də məşğul olduğunu söyləyir. Hətta dərs yükünün çox olduğu bu vaxtlarda yuxusunu da vaxtı-vaxtlı alır. Əlavə kitablar oxuyur. Yoldaşlarına kömək etməyi də unutmur. Boş vaxtlarda oxuduğu dərslərdə gözdən yayına biləcək hissələrin olub-olmadığını yoxlayır, belə halla qarşılaşanda yoldaşlarını da məlumatlandırır ki heç nə nəzərdən qaçmasın. Onu da qeyd edim ki, Türkan həmyaşıdlarına vaxtdan düzgün istifadə etməyi də tövsiyə edir. Bu zaman mütləq şəkildə bütün çətinliklərin öhdəsindən gələcəklərini, arzularına çatacaqlarını söyləyir.

Adətən sənət seçimində insanlar ailədən, izlədiyi filmlərdən, oxuduğu kitablardakı obrazlardan birini özünə nümunə olaraq seçir. Amma Türkan ailələrində həkim olmadığını deyir. Birinci özü həkim olmaq istəyir. Türkan hər zaman hər işdə birinci olmağa çalışır. Uşaqlıqdan həkim olmaq istəyən Türkana bu sahəni seçməkdə yol göstərən nənəsinin olduğunu bildirir. Sonsuz həvəsini isə baxdığı filmlərdən qaynaqlandığını dilə gətirir istedadlı gənc qızımız.

Türkanın həm də çox yaxşı musiqi duyumu var. Muğamlarımızı çox sevən Türkan ara-sıra ailə üzvlərini gözəl səsi ilə də sevindirir. Hətta deyir ki, həkim olmağı seçməsəydim, xanəndə olub gözəl muğamlarımızı ifa edərdim. Yaşı hələ az olsa da hədəfləri böyük olan Türkan təhsilini xarici ölkələrin birində, xüsusən də Almaniyada davam etdirmək istəyir. Türkan müəllimlərinin köməyi, öz səyi ilə arzusuna çatacağına inanır.

Bu qəbul imtahanında ondan ən yüksək nəticəni gözləyirik. Prinsipial və güclü iradəsi olan Türkanın səsinin yüksəklərdən gələcəyinə inanırıq. Həyatda Türkana və onun kimi savadlı, istedadlı, əzmli gənclərimizə bol uğur arzulayırıq. Yolun açıq olsun, hər zaman qabaqcıl olmaq istəyən qızımız Türkan. Həmişə belə ol!

**Aidə Cənnətqızı**

# MARAQLI MƏLUMATLAR

## 1. «Sağlam həyat tərzinin kodeksi»ndən məsləhətlər

**Bərk yataqda, havası yaxşı təmizlənmiş otaqda yatın.**

Çalışın hər gün soyuq və ya ilıq duş qəbul edəsiniz.

Pullarınızı şirniyyatlara xərcləməyin, yaxşı olar ki, meyvə və şirələr alın.

Hər gün heç olmasa yarım qaşıq bal yeyin. Onda nəinki mədəniz sağlam olar, həm də yuxunuz şirin olar.

Həftədə 1 gün ac qalmaq günü təyin edin.

Hər gün idman edin,əgər tənbəllik edirsinizsə heç olmasa 20 dəfə oturub durmaq lazımdır. (bu qan dövranı üçün çox əhəmiyyətlidir).

Heç vaxt xəstəlik və ölüm haqqında fikirləşməyin. Nikbin adamlar çox yaşayırlar və şən olurlar.

Sarımsağın əhəmiyyətini unutmayın, əgər gün ərzində bir kiçik diş sarımsaq yesəniz çox xəstəliklərdən uzaq olarsınız.

Sizi əhatə edən insanlara qarşı nəzakətli olun. Əvəzində həmin cavabı alarsınız.

Zərərli vərdişlərdən uzaq olun.

İnsanlarla salamlaşın, xüsusilə, əgər onlar yaşlıdırlarsa.

Özünüzdə xəsislik, təkəbbür və paxıllıq hisslərinə qalib gəlin.

İmkanınız qədər adamlara kömək edin, əsasən kasıb,xəstə və incimiş adamalara. Bu zaman qeyri-adi bir rahatlıq tapacaqsınız.

**2.Su haqqında nə bilirik:**

-Su planetimizdə həyatın əsasını təşkil edən qeyri-üzvi birləşmədir;

-Yer üzərində suyun 2,7 milyard yaşı vardır;

-İnsan həyatında suya tələbat oksigendən sonra ikinci yeri tutur;

-İnsan susuz yalnız 5-7 sutka yaşaya bilər;

-Ən təmiz su Finlandiyadadır;

-Yeni doğulan körpənin bədəninin 86%-i, yaşlı insanın isə bədəninin 50%-i sudan ibarətdir.

-Orqanizmdən 1% su çıxdıqda biz artıq susuzluğu hiss edirik, 20% maye itkisi isə artıq ölümcül hal sayılır;

-Sutka ərzində insan 1,5-5 litr su qəbul etməlidir;

-İnsan həyatı boyu orta hesabla 40 tona qədər su içə bilər;

-Əksəriyyət insanlar məişətdə sutka ərzində 100 litrdən artıq su işlədir;

-Xlorlu suyu 2 dəfə qaynatmaq lazım deyil, qaynama vaxtı dioksin zəhəri ayrılır, bu isə xərçəng riski yaradır.



**Topladı:**
**Tofiq İskəndərov**

## ETIBARSIZDIR

Şirvan şəhər sakini (keçmiş Əli Bayramlı şəhəri) Sabir küçəsi ev 27) İsmayılov Qurbanxan İskəndər oğluna məxsus fərdi yaşayış evinin RX seriyalı, 0201 091 nömrəli çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

# MEŞƏLƏRİ YANĞINDAN QORUYUN

**Bioloji cəhətdən öz inkişafında bir-birinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin, heyvanat aləminin, mikroorqanizmlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın ən qiymətli milli təbii sərvəti hesab olunur.**

Təəssüf hissi ilə qeyd etməliyik ki, bəzən ayrı-ayrı insanların meşə təsərrüfatına qayğısızlığı, onun qorunub saxlanılmasına laqeydliyi meşə ərazisində kortəbii, idarə olunmayan alovun yayılması və bütün ərazidəki, bitki örtüyünün yanması ilə nəticələnən meşə yanğınları törədərək təbiətin bu əvəzsiz temətinin məhv olmasına gətirib çıxarır.

Meşə yanğınlarından bəhs edərkən xüsusi ilə vurğulanmılıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülmədən kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir.

Meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl olunması zəruridir. Meşə sahələrində söndürülməmiş kibritin, yanan siqaret qalığının və ya kötüyünün atılması, eləcə də tonqalların yandırılması və ağac kömürü istehsal etmək üçün xüsusi ocaqxanaların təşkil edilməsi qadağandır. Küləkli havada tonqalların qalanması xüsusi ilə təhlükəlidir.

Meşələrə sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərə bulaşmış əski və digər materialları atmaq olmaz. Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər yanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir.

Dövlət meşə fondunun, meşə torpaq fondu ilə həmsərhəd olan sahələrdə qurumuş otların kövşənlərin müəssisələr , idarələr təşkilatlar və fermer təsərrüfatları, eləcə də əhali tərəfindən yandırılmasına icazə verilməməlidir.

Meşələrdə yanacaq sürtkü yağlarının açıq şəkildə saxlanılması da yanğın təhlükəlidir.

Yanğın təhlükəsindən uzaq olmaq üçün meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə müəyyən olunmuş qaydada yığılıb saxlanılmalıdır.

Turist istirahət zonaları, gənclər və uşaq təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlər zamanı tonqallar yalnız Meşə mühafizəsi və Bərpası müəssisəsinin icazəsi ilə bu təşkilatın ayırdığı xüsusi yerlərdə qalana bilər. Tonqal heç bir halda ağacın altında (xüsusən də budaqları aşağı sallanan ağacların altında) yandırılmamalıdır. Quru ağac kötükləri və quru ot olan ərazidə də od qalamaq olmaz.Tonqalı söndürüb oranı tərk edən zaman közün üstü torpaqla örtülməlidir. Söndürülmüş torpaqdan tüstü və ya buxar çıxarsa onda aralanıb getmək, tələsmək olmaz. Gedərkən əmin olmaq lazımdır ki, tonqal tam sönüb və sonradan alışma ehtimalı yoxdur.

Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin tör-töküntülərdən təmizlənməsi təmin edilməli, meşə ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şümlanmalı və ya yanğına qaşrşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Bütün bunlarla yanaşı meşələrimizlə əlaqəsi olan hər bir vətəndaş təbiətin bu əvəzsiz sərvətinin yanğın təhlükəsizliyinin qayğısına qalmalıdır.

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Muğan Regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650